# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TERRORLA MÜBARİZƏSİ

*(əvvəli 26 iyul tarixli sayımızda)*

Konfliktologiya ilə məşğul olan bəzi analitiklərin erməni terrorçuluğu barədəki fikirləri bu qənaəti daha da qətiləşdirə bilər. Məsələn, Erik Fayql yazır: "Erməni terrorçuluğu tarixən formalaşmış konsepsiya ilə sıx bağlıdır. Onu yaradanlar üçün terror qisas almağa çağırış vasitəsidir. Dava-dalaşa və qisasa çağıran konsepsiya, əsasən, tarixin reallığını bilməyən və onu öyrənməyə imkanı olmayan gənc ermənilərin şüuruna yeridilir. Ancaq terror konsepsiyanın saxtakarlığını və mücərrədliyini sübut etməklə qarşılıqlı terror haqqında xəyallara qalib gəlmək, qarşılıqlı anlaşma və qarşılıqlı əfv etmək üçün şərait yaratmaq olar. Uzun düşüncələrdən sonra qərara gəldim ki, bu - yeganə çıxış yoludur, çünki xüsusi seçilmiş və hazırlanmış, dözümsüz və ideoloji hazırlıq keçmiş erməni oğlanları belə bir çirkin terror kampaniyasında nəyə nail olmaq istədiyini, yaxşı bilənlərin əlində, həqiqətən, oyuncağa çevrilmişlər. Terror aktı törətməyə razılıq vermiş hər kəs öz həyatını təhlükəyə atır və buna görə də o mənəvi dayağa möhtacdır, o motivdə ki, müvafiq prinsip, konsepsiya və nəzəriyyə irəli sürərək onun qəbul etdiyi qərarın düzgünlüyünə inandırmaq mümkün olsun.

...Erməni terrorçuluğunun fenomeni ondadır ki, o, özünü ifadə etməyi və özünə haqq qazandırmağı müasirliyə keçmiş tarixin prizmasından, məsələn, 1915-ci il hadisələri üzərindən baxmaqla nail olur. Erməni terrorçuluğunun prinsipi qisasdır..." (Bax: *Файгл Эрих.* Размышления о терроре. Армянский терроризм - истоки и причины. Перевод Новруза Мамедова - Баку:Азернешр, 2000, стр.11.)

Beləliklə, hadisələrin inkişafı göstərir ki, iliyinə qədər türk düşməni olan Şaqan Natalinin vəsiyyəti ilə nəfəs alan erməni toplumunun nə vaxtsa haqq-ədalət yoluna gələcəyini soyuqqanlıqla oturub gözləmək xəyalpərvərlikdir. Bunu müasir erməni ictimai fikrinin israrlı etirafından da əxz etmək mümkündür: 2015-ci ilin aprel ayında, 1915-ci il hadisələrinin 100 illiyində Ermənistanda qəbul olunmuş "Unutmamışam və tələb edirəm" devizli ümumerməni deklarasiyası da bunu sübut edir. Həmin sənəd *"alçaldılmış və təhqir olunmuş"* məzlumun göz yaşları deyil, ümumdünya ermənilərinin beynəlxalq aləmdən siyasi tələbi, kin-küdurətinin daimiliyi, gələcək nəslə "qisasçılıq" milli vəsiyyətidir.

Müasir Azərbaycan Respublikasının terrorla mübarizə tarixi Azərbaycan xalqının regionda separatizmə qarşı başladığı mücadilə tarixi ilə sıx bağlıdır. Həm buna görə, həm də Azərbaycan dövləti Azərbaycan Demokratik Respublikasının varisi olduğundan və Azərbaycan SSR-in siyasi-iqtisadi coğrafiyası üzərində qərarlaşdığından, onun terrorla mübarizə məsələsini də bu xronologiya üzrə tədqiqata cəlb etmək məqsədəuyğundur.

Bu baxımdan xüsusilə sovet Azərbaycanı dövründə separatçılıq və terror ilə mübarizə məsələsinə qısa baxış zərurəti vardır. Çar Rusiyasının müstəmləkəsi dövründə Azərbaycanda separatçılıq, xüsusilə də terrorçuluqla mübarizə barədə nisbətən geniş yazıldığından həmin mövzuya təkrar qayıtmırıq; həmçinin, o dövrün erməni separatçılığı və terrorçuluğundakı leytmotiv, ümumiyyətlə, Mir Möhsün Nəvvabın təsvirinə uyğun cərəyan etdiyindən ondan bir xarakterik sitat gətirməklə, mövzunun gigər hissəsinə keçmək məqsədəuyğun hesab edildi: "... Birinci (1905-ci il) erməni-müsəlman davasında sülh və əmin-amanlıq yaratmaq üçün Şuşaya göndərilmiş Qalaşakov (Kalaşakov) adlı bir rus generalı var imiş... duma qlavası erməni Kiki Kələntərov onu yaxşı öyrənmiş, onunla söhbət edib, ermənilərə qarşı rəğbətini bildikdən sonra generalın Şuşa şəhərinə də üsul-idarə rəhbəri təyin olunması üçün onun razılığını almışdı.

...Hər gecə Kiki Kələntərovun başçılığı ilə, erməni tayfasının hesabına general Qalaşakovun mənzilində kef məclisləri qurulurdu. Kələntərovun seçdiyi və generalın qulluğuna təyin etdiyi 2 - 3 nəfər xoşsurət erməni övrətləri gecə-gündüz ona xidmət edirdilər. Kələntərov gecə məclisləri əsnasında Qalaşakova və onun kazaklarına... rüşvət verərək... öz məqsədini izhar etdi. Qarşıdakı erməni-müsəlman davasında rusların onlara kömək etməsini və bu köməyin yerinə yetirilmə yolları ilə əlaqədar tədbir tökməsini generaldan xahiş etdi... generala 10 000 manat rüşvət verərək belə ittifaqa gəlirlər ki, generala verilən puldan əlavə padşahlıq rus topunun hər atəşinə 15 manat, çar ordusu əsgərlərinin tüfəngdən atdıqları hər bir gülləsinə isə bir manat pul verilsin.

...əvvəlcədən tökdükləri tədbirə əsasən rus əsgərləri erməni keşikçilərdən birini öldürərək müsəlman səmtə atdılar və sonra da səs saldılar ki, müsəlmanlar erməni keşikçisini öldürərək başını kəsmiş və tüfəngini də aparmışlar... hiyləyə əsasən həmin vaxt rus əsgərlərindən iki nəfər də gedib, müsəlman məhəllələri tərəfindən ermənilər səmtə güllələr atırlar... Generalın hiyləsi də bu idi ki, xalqı müsəlmanlara qarşı qaldırsın...". **Bax: Mir Möhsün Nəvvab.** 1905 - 1906-cı illərdə erməni-müsəlman davası. B.: "Azərbaycan" nəşriyyatı, səh. 112 - 115].

1920-ci ilin aprel ayının 28-də Azərbaycanda hərbi çevriliş yolu ilə hakimiyyətə gələn bolşeviklər dövlət quruculuğu sahəsində xalqlar arasında nifaq salmaq, milli-mənəvi dəyərləri əvvəlcə aktivləşdirib, sonra da kollektivləşmə və mədəni inqilab pərdəsi altında repressiyalar etməyə, süni inzibati bölgülər və yeni tipli sovet xalqı birliyinin yaradılması ideologiyasının həyata keçirilməsinə başlamışdılar. Onların bu siyasətinə qarşı çıxmaq qüdrətinə malik milli elitanı hər cür üsullarla, o cümlədən terror (tarixdə *"qırmızı terror"* ifadəsi geniş işlənməkdədir) yolu ilə aradan qaldırılmaq bolşevik idarə üsulunun əsas silahlarından idi. Çar dövründən qalma erməni terrorçularının sonra bolşeviklər sırasında səf tutması isə Azərbaycanda bu məsələnin həllinin daha mütəşəkkil, dəhşətli və total formatda aparılacağı təhlükəsini reallaşdırırdı. Nəriman Nərimanovun Lenin, Stalin, Orconikidze və o dövrün başqa partiya-sovet dövlət xadimlərini bu barədə məlumatlandırması gözlənilən nəticəni verməmişdi. Azərbaycan və azərbaycanlılar çar dövründə olduğu kimi, sovet hakimiyyəti illərində də terror və repressiyaya, xüsusilə də qisas və ilhaq konsepsiyası ilə formalaşmış erməni terrorçuluğuna məruz qalmışdır.

Araşdırma materialları göstərir ki, ermənilərin ərazi iddiaları və Azərbaycana qarşı terror və separatçılıq fəaliyyətini dəstəkləyən bolşeviklər ilk növbədə V. İ. Leninin şəxsən işləyib hazırladığı və 1917-ci ildə Rusiya Müvəqqəti Hökumətinin devrilişindən bir gün sonra qəbul olunmuş ilk sovet sənədi - Sülh haqqında Dekretin müddəalarına zidd idi. Həmin sənəddə "özgə ərazilərin ilhaqı və tutulması", "hər hansı ərazinin birləşdirilməsi", "güc tətbiqi ilə ərazi birləşdirilməsi" və "gizli diplomatiya" üsulu qətiyyətlə rədd edilirdi. Sovet Ermənistanının və erməni mənşəli bolşeviklərin mövqeyi isə tamam başqa idi. İllər sonra SSRİ-də hazırlanan sənəddə də həmin "gizli diplomatiya"nın qalıqlarına rast gəlinmişdir. Müstəqil Azərbaycan Respublikasının BMT-də ilk daimi nümayəndəsi Həsən Həsənov "New Baku Post" qəzetinə (10 noyabr 2012-ci il) müsahibədə Dağlıq Qarabağa dair rəsmi sənədlər hazırlığında diplomatik gərginliyi belə ifadə edirdi: "Bizim əsas həll eləməli olduğumuz məsələlər Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi, Dağlıq Qarabağın Azərbaycana aid olduğunun təsdiqlənməsi və əsas şərt olaraq o dövrdə zəbt olunmuş Azərbaycan ərazilərindən qoşunların çıxarılması idi. Bu problemlə bağlı 4 qətnamə ətrafında apardığımız fəaliyyət bu məqsədləri güdürdü. Qətnamələrin məhz bu səpkidə qəbul olunması üçün bir il yarım BMT-də 150-ə yaxın rəsmi sənəd yaydıq və 200-ə yaxın görüş keçirdik. Nəticədə Dağlıq Qarabağ haqqında 4 qətnamə və 4 bəyanat qəbul olundu. Biz nəyə nail olduq bu qətnamələrlə? Əsas nailiyyətimiz ondan ibarətdir ki, Dağlıq Qarabağın və Naxçıvanın məhz Azərbaycan regionu olduğu BMT sənədlərində təsdiq olundu. Bu çox vacib amil idi. O dövrə qədər... heç bir beynəlxalq sənəddə Dağlıq Qarabağın Azərbaycana məxsusluğu qeyd edilməmişdi. Hətta SSRİ-nin konflikt dövrünə aid sənədlərində sadəcə Dağlıq Qarabağ məhfumu var idi, arxasında Dağlıq Qarabağın Azərbaycan regionu olması məhfumu yox idi."

Daşnak silahlı dəstələrinin Azərbaycanda 28 aprel hərbi çevrilişi ərəfəsində və ondan sonra həyata keçirdiyi terror aktlarının obyekti dinc əhali və ADR-in quruculuğunda, idarəçiliyində böyük xidmətləri olan dövlət adamları idi. Məqsəd öncə azərbaycanlıların milli elitasını yox etmək, sonra isə millətə havadarlıq edə biləcək qüvvələrin olmadığı bir cəmiyyətdə xalqın, necə deyərlər, gözünün odunu alıb ata-baba torpaqlarından qovaraq həmin coğrafiyaya sahib çıxmaq, digər tərəfdən, milli təəssübkeşliyi bünövrədən zəiflətmək idi. 28 aprel çevrilişindən az öncə, yəni 19 apreldə Ağdam rayonu ərazisində Qarabağ əhalisinə tutulan divan [**Bax:** Преступления армянских террористических и бандитских формирований против человечества (XIX - XXI вв.). Краткая хронологическая энциклопедия. Баку, Элм, 2002, стр.138.] və həmin ilin may ayının 20-də Nəsib bəy Yusifbəylinin, iyun ayının 19-da Fətəli xan Xoyskinin qətli, Xəlil bəy Xasməmmədovun ağır yaralanması (**Yenə orada, səh. 139.**), bundan bir ay sonra isə tanınmış ictimai-siyasi xadim Həsən bəy Ağayevin öldürülməsi "Daşnaksütyun" partiyasının öz dəstxəttinə sədaqəti, bolşeviklərin susaraq onlara həmrəylik nümayiş etdirməsi II Dünya müharibəsinədək davam etmişdir. Bütün bunlar terrorçuların köhnə taktikası və işğalçı rejimin güc strukturlarının müxtəlif silahlı hibrid kombinasiyaları əsasında aparılırdı.

Azərbaycan sovetləşdikdən sonra bolşevik cildində respublikaya qayıdan keçmiş daşnaklar bolşevik partiyasının müxtəlif təşkilatlarında və hakimiyyət orqanlarında məsul vəzifələr tutaraq antiazərbaycan fəaliyyətlərini yeni siyasi quruluşun şüarları ilə pərdələnmiş halda, gizlin və qəddarlıqla davam etdirmişlər. Çünki sovet hakimiyyəti qurulduqdan sonra xaricə qaçmış yüzlərlə daşnakın Ermənistan SSR-yə, hətta Azərbaycan SSR-yə qayıtmasına icazə verilsə də (1920-1930-cu illərdə), mühacir azərbaycanlıların müvafiq istəkləri yerinə yetirilməmişdi. Bu günün termini ilə desək, Azərbaycana qarşı ikili standartlar o vaxtlar da mövcud idi. Məsələn, hələ RK(b)P MK siyasi bürosunun 1923-cü il 22 noyabr tarixli iclasında (47 nömrəli protokol) SSRİ Xalq Xarici İşlər komissarının müavini M. Litvinovun təqdimatı əsasında Türkiyədən olan ermənilər haqqında məsələ müzakirə edilmişdi. Qərarda 10 min erməninin Türkiyədən gətirilib SSRİ hüdudlarında məskunlaşdırılmasına etiraz edilməmiş, eyni zamanda bu iş dövlət tərəfindən maliyyələşdirilmişdi. Məhz bu tipli dövlət qərarları nəticəsində terrorçu-ermənilər də asanlıqla köçkünlərin sıralarına qoşulub sovet ərazisinə keçmiş və təşkilatlanmışlar. 1921-ci ilin fevral-mart aylarında "kommunistlərlə mübarizə" pərdəsi altında fəaliyyət göstərən "Sovet hakimiyyətinə qarşı erməni mübarizə təşkilatı" azərbaycanlılara divan tutmuşdur (onun qurucusu və rəhbəri Simon Vratsanyan 1926-cı ildə xaricə qaçaraq ABŞ-da məskunlaşmış, hətta Dövlət Departamentində Yaxın Şərq məsələləri üzrə məxfi müşavir qismində çalışmışdır. Tədqiqat materiallarından məlumdur ki, o, 1942-ci ildə Krım tatarlarının,1942/43-cü illərdə çeçen və inquşların, 1943/44-cü illərdə isə məhsəti türklərinin deportasiya edilməsində SSRİ rəhbərliyində erməni məsələsinə lobbiçilik edən Anastas Mikoyana agentura yolu ilə təsir göstərmiş, məsləhətlər vermişdir. (**Yenə orada, səh.147.**)

Keçən əsrin 20 - 30-cu illərində erməni terrorçuluğunun coğrafiyası SSRİ ərazisindən (Azərbaycan, Rusiya, Gürcüstan, Özbəkistan və s.), ABŞ, Almaniya, Türkiyə, İtaliya torpaqlarına keçərək, əsasən də Türkiyənin görkəmli dövlət və hərb adamlarını hədəfə almışdır (qeyd edək ki, ADR-in Daxili İşlər naziri Behbud xan Cavanşir də 1921-ci ildə, mart ayının 18-də İstanbulun mərkəzində erməni terrorçusu tərəfindən qətlə yetirilmişdi). 20-ci illərin axırlarından isə erməni terrorçuluğunda taktiki dəyişikliklər sezilməyə başlanılmışdı. Daşnakçılar, ümumiyyətlə, erməni şovinistləri arasında "Daşnaksütyun" partiyasının fəaliyyəti nəticəsində erməni xalqının başına gələn müsibətlər" fikrinin təsiri altında ciddi daxili ixtilaflar, həmçinin ayrı-ayrı fərdlərə qarşı terror üsulunun səmərəsizliyi və perspektivsizliyi barədə fikirlər baş qaldırmışdı (**Bax:** *Качазнуни* Ов. Дашнакцутюн: Больше нечего делать! Азернешр, Баку, 2013; *Палаян* А. "Контрреволюционный "Дашнакцутюн" и империалистическая война 1914 - 1918 гг." см: "Революционный Восток". № 2 - 3. Изд. научно-исследовательской Ассоциации по изучению национальных и колониальных проблем. М.: 1936, стр. 76 - 99.). Eləcə də sovet dünyagörüşündə süni çoxmillətli dövlətdə etnik dözümlülük təbliğatının güclənməsi ilə əlaqədar keçən yüzilliyin 20-ci illərinin axırlarından başlayaraq silahlı terror taktikasından əl çəkməyin cücərtiləri yaranmışdı. Lakin bu fikrə müxalif, pərdələnmiş daşnakçılar silah əvəzinə, qələmlə, elmi-bədii sözlə şovinizm və revanşizm motivlərini yayaraq bilavasitə düşüncələrdə yeni tipli terror kompleksinin formalaşdırılmasına başlamışdılar.1928-ci ilin sentyabr ayının 9-da AK(b)P MK-nın Rəyasət heyətinin iclasında Aqasi Vartanyanın "Xorurdain Karabaq" ("Sovet Qarabağı") qəzetində dərc olunmuş "Dağlıq Qarabağ Muxtariyyətində ideoloji mübarizə" məqaləsi ətrafında aparılan müzakirələr məsələnin ciddiliyinin və aktuallığının göstəricisi kimi xüsusi diqqət doğurur. Məqalədə Qarabağda baş qaldırmış şovinist təbliğata qarşı yerli rəhbər orqanların xəyanətkarcasına biganə qalmalarından bəhs olunur, Qarabağın bolşevik rəhbərliyi ***spesifizimdə*** (sinfi təlimlərlə bəzədilmiş nasional, meşşan düşüncə və fəaliyyət tərzi. - *E.C.*) təqsirəndirilirdi. Səbəb kimi isə bir neçə ay əvvəl Q. Seyranyan adlı birisinin Tiflisdə nəşr olunan "Qarabağın iqtisadi həyatı və onun perspektivləri" kitabı göstərilmişdi. "Daşnak qələminin məhsulu" kimi dəyərləndirilən bu kitab Azərbaycandakı erməni ictimaiyyətini ikiyə parçalamış, rəhbər erməni dairələrdə əks-inqilabi qüvvələrə qarşı laqeydlik göstərilməsi tənqid olunmuşdu. Həmin müzakirələrdə DQ rəhbərliyini müdafiə edənlər də tapılmışdı. Müzakirə qismində nümunə olaraq həmin nəşrdə yer almış fikirlərin bəziləri də acıqlanmısdir, məsələn, türklərin (azərbaycanlıların. - *E.C.*) çoxluq təşkil etdiyi qədim Şuşa hazırda xarabazara çevrilib, qaniçən düşmən (yəni azərbaycanlılar. - *E.C.*) əlindədir; Şaumuyan və Caparidzenin şəhəri (yəni Bakı. - *E.C.*) aldadılaraq və alçaldılaraq süquta yetirildi, öz sərhədlərinin qapılarını hər gün özünü satan, qucağını hamıya açan, şortu, ləyaqətsiz qəhbə kimi düşmənə açdı. Redaksiya ideya terrorçularının bu hərəkətini maskalanmış uğursuz cəhd kimi xarakterizə etmişdi. Redaksiya ilə DQ rəhbərliyi arasındakı qarşıdurmada Nersesyan, Edelvesyan və Vartanyan soyadlı müəlliflərin bədii əsərlərindəki qarşılıqlı ittihamlar da əsas mövzu olmuşdu. "Ədəbiyyat və terror", "KİV və terror" mövzusunun sovet dövründəki kü rüşeymləri məhz bu illərdən başlayaraq nəzərə çarpmışdır (**Bax: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, Siyahı 74, İş 279.).**.

***(davamı növbəti saylarımızda)***